Milli Büdcə Qrupu

# AYLIQ BÜLLETEN №2(2)

Aprel 2007

# Mündəricat

1. **Büdcə prosesi və onun icrası**

- *Dövlət büdcəsinin icrası (yanvar-mart 2007-ci il)*
- *Azərbayacanın dövlət  büdcəsi profistlə yerinə yetirilmə meylini saxlayır*
- *Azərbaycan Dövlət Neft Fondunun hesabına dövlət büdcəsindən daxil olan qalıq valyuta 700 mln. dollar təşkil edir*
- *Xəzinə hesabında olan vəsaitin qalığı yüksəkreytinqli maliyyə strukturlarının idarəetməsinə verilə bilər*
- *Azərbaycanın dövlət büdcəsinə yenidən baxılması zərurəti yaranıb*
- *Dövlət büdcəsinə əlavə və dəyişikliklər edilməsiylə bağlı sənəd Milli Məclisə təqdim olunacaq*
- *Azərbaycanın 2007-ci il üçün dövlət büdcəsinə dəyişikliklər 5 faizdən çox olacaq*
- *Azərbaycan Dövlət Neft Fondunun 2007-ci il büdcəsinə xərclərin artırılması istiqamətində dəyişlik ediləcək*
- *Dövlət Sosial Müdafiə Fondu birinci rübün yekunlarını elan edib*

2. **Vergilər**

- *Birinci rübdə Azərbaycanın iri vergi ödəyicilərinin borcları 11,6 faiz azalıb*
- *Azərbaycanın iri vergi ödəyicilərində vergi qanunvericiliyinin pozulma halları azalıb*
- *Vergi qanunvericiliyində maliyyə sanksiyalarının və administrativ cərimələrin miqdarı artıb*
- *Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat*

3. **Büdcə xərcləmələri**

- *Nazir: Azərbaycan əhalisi üçün ünvanlı sosial yardım 1,5 dəfə artacaq*
- *Azərbaycanda ünvanlı dövlət sosial yardımının verilməsi üçün müvəkkil banklar seçilib*
- *İşsizlərin sosial müdafiəsi tədbirlərinin maliyyələşdirilməsi üçün Dövlət proqramı təsdiqlənib*
- *Azərbaycanın Maliyyə Nazirliyi avroistiqrazların emissiyası və yerləşdirilməsi üçün xarici menecer cəlb edir*
- *Azərbaycan prezidenti Elmlər Akademiyası işçilərinin maaşlarında dəyişiklik edib*
- *Parlamentin komissiya sədri: «QHT-lərə dövlət tərəfindən maliyyə vəsaitinin ayrılması vacibdir»*
- *Azərbaycan Bakı-Tiflis-Qars layihəsi üzrə Gürcüstana vəsait ayırıb*
- *ADDY dəmiryol infrastrukturunun təkmilləşdirilməsinə yatıracağı vəsaitlərin ilkin həcmini müəyyən edib*
- *Gəncə küçələrinin işıqlandırma sisteminin quraşdırılması üçün Dövlət Neft Fondundan 1 milyon manat vəsait ayrılıb*

4. **Büdcəyə nəzarət və şəffaflıq**

- *Sədr müavini: Dövlət müəssisələri Hesablama Palatasına münasibətlərini dəyişiblər*
- *Parlament Azərbaycanın Hesablama Palatasının yeni rəhbərinin təyinatını təsdiqlədi*
- *Azərbaycanın Hesablama Palatası «Azəristiliktəchizat»da çatışmazlıqlar aşkar edib*
- *Azərbaycanın Hesablama Palatası Naxçıvanın Elmi Araşdırma Veterinar Stansiyasının auditini müzakirə edib*

**5. Büdcə qanunvericiliyi**

- *Ekspert: «Azərbaycanda «Dövlət maliyyə nəzarəti haqqında» qanuna ehtiyac artır»*
- *Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsini nəzərdə tutan qanun layihəsi qəbul olnub*
- *Azərbaycan hökumətinə ünvanlı sosial yardımın verilmə mexanizminin sadələşdirilməsi təklifləri təqdim olunub*

**6. Vətəndaş cəmiyyəti**

- *Milli Büdcə Qrupunun (MBQ) 2007-ci il aprel ayı üçün fəaliyyəti*

***7. Beynəlxalq təcrübə***

- *Gürcüstan ilk dəfə olaraq dövlət büdcəsinin üzünmüddətli proqnozlaşdırılmasına keçir*
- *DB missiyası Azərbaycanın Milli Bankında büdcə formalaşdırılmasında Çili təcrübəsinin təqdimatını keçirib*

# 1. Büdcə prosesi və onun icrası

***Dövlət büdcəsinin icrası (yanvar-mart 2007-ci il)***

2007-ci ilin I rübündə dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 65.0 faiz və ya 428.1 milyon manat artaraq 1086.8 milyon manat təşkil etmişdir. Büdcə gəlirlərinin 72.2 faizi (784.8 milyon manatı) Vergilər Nazirliyi, 15.3 faizi (166.1 milyon manatı) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, qalan hissəsi isə (135.9 milyon manatı) digər mənbələrdən yığılmışdır. Gəlirlərin 245.6 milyon manatı və ya 22.6 faizi əlavə dəyər vergisindən, 376.4 milyon manatı (34.6 faizi) mənfəət vergisindən, 119.1 milyon manatı (10.9 faizi) əhalidən tutulan gəlir vergisindən, 60.4 milyon manatı (5.6 faizi) aksiz vergisindən, 67.6 milyon manatı (6.2 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur.

*2007-ci ilin I rübündə dövlət büdcəsinin gəlirləri*

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| ***Gəlirlər – cəmi*** | **1086,8** | **100,0** | **21,1** | **165,0** |
| *o cümlədən:* | | | | |
| Əhalidən tutulan gəlir vergisi | 119,1 | 10,9 | 2,3 | 173,9 |
| Mənfəətdən vergi | 376,4 | 34,6 | 7,3 | 2,6d |
| Torpaq vergisi | 6,1 | 0,5 | 0,1 | 160,5 |
| Əmlak vergisi | 15,8 | 1,5 | 0,3 | 156,4 |
| Əlavə dəyər vergisi | 245,6 | 22,6 | 4,8 | 158,2 |
| Aksiz vergisi | 60,4 | 5,6 | 1,2 | 2,1d |
| Mədən vergisi | 25,6 | 2,4 | 0,5 | 140,7 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 67,6 | 6,2 | 1,3 | 97,3 |
| ondan idxal rüsumu | 33,1 | 3,0 | 0,6 | 93,8 |
| Sair vergilər | 14,0 | 1,3 | 0,3 | 2,1d |
| Digər gəlirlər | 156,2 | 14,4 | 3,0 | 100,6 |

Bu dövr ərzində büdcədən 834.6 milyon manat və ya əvvəlki ildəkindən 25.6 faiz çox vəsait xərclənmiş və büdcənin icrasında 252.2 milyon manatlıq (ümumi daxili məhsulun 4.9 faizi qədər) profisit yaranmışdır. Büdcə xərclərinin 211.4 milyon manatı (25.3 faizi) iqtisadiyyata investisiya qoyuluşuna, 151.9 milyon manatı (18.2 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 122.6 milyon manatı (14.7 faizi) isə təhsilin maliyyələşdirilməsinə sərf edilmişdir. Büdcə xərclərinin 41.6 faizini (347.1 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

*2007-ci ilin I rübündə dövlət büdcəsinin xərcləri*

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| ***Xərclər – cəmi*** | **834,6** | **100,0** | **16,2** | **125,6** |
| *o cümlədən:* | | | | |
| Ümumi dövlət xidməti xərcləri | 95,2 | 11,4 | 1,8 | 84,5 |
| *Ondan:* | | | | |
| beynəlxalq təşkilatlara üzvlük haqqı | 1,3 | 0,2 | 0,02 | 59,1 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanması xərcləri | 71,0 | 8,5 | 1,4 | 153,0 |
| Təhsil xərcləri | 122,6 | 14,7 | 2,4 | 123,7 |
| Səhiyyə xərcləri | 33,7 | 4,0 | 0,6 | 135,3 |
| Sosial müdafiə və sosial təminat xərcləri | 151,9 | 18,2 | 3,0 | 2,3d |
| Mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyəsi və din sahəsində fəaliyyətə çəkilən xərclər | 14,8 | 1,8 | 0,3 | 146,5 |
| İqtisadiyyata çəkilən xərclər | 211,4 | 25,3 | 4,1 | 104,7 |
| *Ondan:* - mənzil-kommunal təsərrüfatı xərcləri | 10,1 | 1,2 | 0,2 | 121,7 |
| - kənd, meşə və balıqçılıq təsərrüfatı xərcləri | 21,9 | 2,6 | 0,4 | 109,0 |
| - sənaye və tikinti xərcləri | 172,6 | 20,7 | 3,4 | 113,9 |
| - nəqliyyat və rabitə xərcləri | 6,8 | 0,8 | 0,1 | 46,9 |
| Sair xərclər | 134,0 | 16,1 | 2,6 | 130,6 |
| *Profisit* | **252,2** | - | **4,9** | - |

**Azərbaycan büdcəsi profisitlə yerinə yetirilmə meylini saxlayır**

Dəqiqləşdirilmiş məlumatlara görə, aprelin birinə faktiki büdcə daxil olamaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 65 faiz (428,1 mln. manat) artaraq 1086,8 mln. manat (21,1 faiz ÜDM) təşkil edib. Bu barədə hökumətdən məlumat veriblər. Dövlət büdcəsinin xərcləri 25,6 faiz artaraq 834,6 mın manat (16.2 faiz ÜDM) təşkil edib. **Yanvar-mart aylarında büdcə profisiti 252,2 mln. olmaqla ÜDM-in 4,9 faizini təşkil edir.** Büdcənin gəlir hissəsində 72,2 faiz Vergilər Nazirliyinin hesabına təmin olunub. Gömrük rüsum və vergiləri 166,1 mln. manat (xüsusi çəkisi 15,3 faiz) təşkil edib. Qalan 135,9 mln. manat isə digər mənbələr hesabına təmin olunub. Hesabat dövründə ƏDV-dən 245,6 mln. manat daxil olub ki, bu da aşağıdakı kimi bölüşdürülüb: 22,6 faiz ümumi gəlirlər, mənfəət vergisi – 376,4 mln. manat (34,6 faiz), gəlir vergisi – 119,1 mln. manat (10,9 faiz), aksiz vergisi – 60,4 mln. manat (5.6 faiz), xarici iqtisadi fəaliyyətdən – 67,6 mln. manat (6,2 faiz). Əhalinin sosial təminatının və müdafiəsinin yaxşılaşdırılması üçün yanvar ayında büdcə xərcləri 151,9 mln. manat (18,2 faiz), təhsil – 122,6 mln. manat (14,7 faiz), səhiyyə - 33,7 mln. manat (4 faiz), prokurorluq, təhlükəsizlik, hüquqmühafizə orqanları, məhkəmə hakimiyyətlərinin saxlanılmasına – 71 mln. mant (8,5 faiz), iqtisadiyyat invvestisiya hyatırımı – 211,4 mln.manat (25,3 faiz) burdan yaşayış-kommunal xərclərinə -10,1 mln. manat (1,2 faiz), sənaye və tikinti – 172,6 mln. manat (20,7 faiz), kənd, meşə təsərrüfatı, həmçinin balıqçılığa – 21,9 mln. manat (2,6 faiz) ayrılıb. Əmək haqları, pensiya və müavinətlərin ödənilməsinə yanvar ayında 41,6 faiz (347,1 mln. manat) büdcə vəsaiti sərf olunub.

**Azərbaycan Dövlət Neft Fondunun hesabına dövlət büdcəsindən daxil olan qalıq valyuta 700 mln. dollar təşkil edir**

Azərbaycan Dövlət Neft Fondu və Maliyyə Nazirliyi arasında 11 avqust 2006-cı ildə imzalanmış razılaşmaya əsasən, bu günə ARDNF xüsusi hesabına büdcə daxilolmaları üzrə valyuta qalığı 700 mln. dollar təşkil edir. Bu barədə Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov bildirib. İlin əvvəlindən bu vəsaitlər dəyişilməz olaraq qalır. Belə ki, Maliyyə Nazirliyi verilmiş vəsaitdən büdcə ehtiyacları üçün istifadə etməyib. Amma dövlət büdcəsinin qalıq profisitindən vəsaitlər hələ ARDNF-ə köçürülməyib. Sxem belədir ki, ilk növbədə ötən ilin büdcəsinin icrası təsdiq olunmalıdır. 2007-ci ilin təsdiq olunmuş büdcəsinə görə, onların xərclərinin 1/12 hissəsi tutulduqdan sonra profisit müəyyən olunarsa, qalıq vəsait Dövlət Neft Fonduna köçürülür. 2006-cı ilin dövlət büdcəsinin icrası may ayında parlamentdə təsdiq olunacaq.

Maliyyə Nazirliyi 2007-ci ildə də büdcəyə valyuta daxil olmalarını Neft Fondunun idarəçiliyinə verməyi davam etdirəcək. Bu vəsaitlər həmçinin xarici valyuta ilə qaytarılır. Lakin daha öncə büdcə vəsaitlərinin Neft Fondu vasitəsilə konvertasiya edilməsi nəzərdə tutulurdu. Amma hökumət bu sxemlə razılaşmadı və hazırda Nazirlik konvertasiyanı valyuta bazarında özü həyata keçirir. Nazirlər Kabinetinin bir müddət öncə verdiyi əmrə əsasən, Maliyyə Nazirliyinə bəzi xərcləri xarici valyuta ilə həyata keçirməyə icazə verilir.

**Xəzinə hesabında olan vəsaitin qalığı yüksəkreytinqli maliyyə strukturlarının idarəetməsinə verilə bilər**

Nazirlər Kabineti büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığının idarəetməyə verilməsi qaydalarını təsdiq edib. Qaydalar faktiki büdcə daxilolmalarının nəzərdə tutulduğundan artıq olması, kassa icrası xəzinədarlıq tərəfindən aparılan büdcədənkənar fondların və məqsədli hesabların (depozit və tapşırıq hesabları) müvafiq şərtlərlə etibarlı banklarda yerləşdirilməsi mexanizmini müəyyənləşdirir.

Sərbəst qalıq vəsaitlərinin etibarlı idarəetməyə verilməsinin əsas məqsədi həmin vəsaitləri dəyərsizləşməkdən qorumaq və dövlət büdcəsinə əlavə gəlir gətirməkdir. Sərbəst qalıq vəsaitləri Maliyyə Nazirliyi tərəfindən idarə edilə və ya valyuta vəsaitlərinin idarə edilməsində geniş təcrübəyə malik olan quruma idarəetməyə verilə bilər ki, bu da bağlanılmış müqavilə, saziş və digər hüquq müəyyənedici sənədlər və əqdlər əsasında həyata keçirilir. Sərbəst qalıq vəsaitlərinin idarə edilməsi və ya idarəetməyə verilərək yerləşdirilməsi istiqamətlərinin müəyyən olunması hər il üçün qəbul olunan investisiya siyasətinə uyğun olaraq həyata keçirilir. Sərbəst qalıq vəsaitlərinin idarə olunması üzrə investisiya siyasəti Maliyyə Nazirliyinin kollegiyası tərəfindən qəbul edilir. İnvestisiya siyasətində investisiya portfelinin proqnozlaşdırılan həcmi, xarici menecerlər cəlb etməklə sərbəst qalıq vəsaitlərinin idarəetməyə veriləcək investisiya portfelinin hissəsi və müddəti, likvidlik üzrə tələblər, kredit riskləri üzrə tələblər, qalıq vəsaitlərinin gəlirlilik dərəcəsi öz əksini tapmalıdır. Sərbəst qalıq vəsaitlərinin idarə olunması məqsədi ilə bu sahəyə ixtisaslaşan maliyyə təsisatları və xarici menecerlər cəlb edilə bilər. Sərbəst qalıq vəsaitinin idarə edilməsi üçün xarici menecer cəlb edildikdə, xarici menecer tərəfindən idarə olunan investisiya portfelinə yuxarıda sadalananlardan əlavə digər aktivlər, o cümlədən korporativ səhmlər də daxil ola bilər. Vəkalət alan sərbəst qalıq vəsaitlərinin idarə edilməsi zamanı onların yerləşdirildiyi hesabın vəziyyəti, vəsaitlərin həcmi və eləcə də hesabat dövründə həyata keçirilən əməliyyatlar və əldə edilmiş gəlir barədə özünün müəyyən etdiyi formada ayda bir dəfə Maliyyə Nazirliyinə, Nazirlikdə öz növbəsində idarəetməyə verilmiş sərbəst qalıq vəsaitlərinin hərəkətini və onun idarə edilməsindən əldə edilən gəlirlərin uçotunu ayrıca göstərməklə, rübdə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verir. Sərbəst qalıq vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlir Maliyyə Nazirliyinin Milli Bankda olan hesablaşma hesabına köçürülür və büdcə daxilolmalarında uçota alınır.

**Azərbaycanın dövlət büdcəsinə yenidən baxılması zərurəti yaranıb**

İkinci yarımillikdə artımla əlaqədar olaraq 2007-ci ilin dövlət büdcəsinə yenidən baxılacaq. Azərbaycan büdcəsi dünya bazarında neftin qiymətinin dəyişməsilə əlaqədar edilən dəyişikliklərə öyrəşib. Bu dəfə büdəcəyə yenidən baxılması zərurəti yanvar ayında bəzi enerjidaşıyıcılarının qiymətlərinin artması və hökumət tərəfindən əhalinin sosial müdafiəsi ilə bağlı görülən tədbirlərlə əlaqədardır. 2007-ci ilin büdcəsi üçün gəlirlər 5,336 mlrd. manat, xərclər isə 5,715 mlrd. manat müəyyən olunub. Büdcə kəsiri isə 379 mln. manat, yaxud ÜDM-in 1,7 faizi həcmində müəyyən olunub. Maliyyə Nazirliyinin ilkin hesablamalarına görə, daxili bazarda neft məhsullarının qiymətlərinin artması dövlət büdcəsinə təqribən 220 mln. manat həcmində əlavə vəsaitlərin köçürülməsinə gətirib çıxaracaq. Əmək haqlarının artması ilə əlaqədar gəlir vergisinə görə də dövlət büdcəsinin gəlirləri artacaq. Yanacaq-energetika kompleksinin bilavasitə subsidiyalaşdırıl- ması ilə bağlı məsələ qəti surətdə həll olunacaq. 2007-ci ilin dövlət büdcəsinə proqnozlarda bu məqsədlər üçün 330 mln. manat qoyulub. Öz növbəsində dövlət büdcəsində enerjidaşıyıcıları və kommunal xidmətlərin qiymətinin artmasının mənfi təsirlərindən aqrar sahənin zərər çəkməsinin qarşısını almaq məqsədilə dövlət subsidiyaları nəzərdə tutulub. Bu məqsədlə fermerlər üçün 80 mln. vəsait ayrılması nəzərdə tutulub. Dövlət büdcəsinə edilən dəyişikliklər zamanı həmçinin yaşayış minimumu məsələsinə də baxılacaq. Dövlət büdcəsində neftin qiymətilə bağlı dəyişikliklərə gəldikdə isə, böyük ehtimal ki, bu məsələ müzakirə olunmayacaq. Dünya bazarında neftin qiyməti 60 dollar civarında dəyişir ki, bu da dövlət büdcəsində müəyyən olumuş bir barel üçün 50 dollardan çoxdur.

**Dövlət büdcəsinə əlavə və dəyişikliklər edilməsiylə bağlı sənəd Milli Məclisə təqdim olunacaq**

May ayının ortalarında 2007-ci ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərlə bağlı sənəd Milli Məclisə təqdim olunacaq. Bu barədə Milli Məclisin Sosial siyasət daimi komissiyasının sədri Hadı Rəcəbli məlumat verib. Onun sözlərinə görə, dövlət büdcəsinin artımı Azərbaycanda əmək haqlarının

artırılmasına yönəlib. «Dövlət büdcəsinə əlavələr və dəyişikliklərlə bağlı proqressiv nəticələr gözlənilir. Başlıca məqsəd insanların rifahının yaxşılaşdırılmasıdır» - deyə Rəcəbli vurğulayıb.

### Azərbaycanın 2007-ci il üçün dövlət büdcəsinə dəyişikliklər 5 faizdən çox olacaq

Azərbaycanın Maliyyə Nazirliyi yaxın günlərdə Nazirlər Kabinetinə «2007-ci il dövlət büdcəsinə əlavələr və dəyişikliklər haqqında» qanun layihəsini təqdim etməyə hazırlaşır. Bu barədə nazirlikdən məlumat veriblər. Güman olunur ki, büdcə təxminən 6 faiz dəyişəcək və gəlir hissəsinin proqnoz göstəricilərinin 300 mln. manat artırılacağı gözlənilir. 2007 il üçün təsdiqlənmiş büdcədə gəlir hissəsi 5 mlrd. 335,7 mln manat, xərclər– 5 mlrd. 714,7 mln manat, kəsir isə 379 mln. manat və yaxud ÜDM-in 1,7% müəyyənləşdirilib. Büdcə proqnozlarına dəyişikliklərə zərurət Tarif Şurasının enerji daşıyacıları və kommunal xidmətlər tariflərini qaldırmaq qərarından sonra yaranıb. Çünki hökumət büdcə xərclərinə kənd təsərrüfatına 80 mln. manat yardımı, müavinət və maaşların yüksək templərlə artırılması, habelə ünvanlı sosial yardımların artırılmasını daxil edilib.

Büdcəyə planlaşdırılan dəyişikliklər nəticəsində aksizlər üzrə gəlirlərin artımı gözlənilir. Bu, enerji daşıyıcılarının qiymətinin və aprelin 1-dən idxal olunan alkoqollu məhsulların aksizlərinin (1,5-2 dəfə) artırılması nəticəsində mümkün olub. Proqnozların həmçinin ƏDV, ARDNŞ tərəfindən gəlir vergisi və təbii sərvətlərə qoyulan vergi (bunu ARDNŞ ödəyəcək) üzrə artacaq. Vergi daxilolmaları eyni zamanda «Azərenerji» və «Azəriqaz» tərəfindən gözlənilir.

Maaşların artımı ilə əlaqədər dövlət büdcəsinin gəlirlər hissəsi həmçinin gəlir vergisi hesabına artacaq. Büdcəyə əlavə və dəyişikliklərin təsdiqlənməsi «2006-cı il dövlət büdcəsinin icrası haqqında» qanun layihəsi ilə birlikdə mayda gözlənilir. Onların hər ikisi ilin ikinci yarısından qüvvəyə minəcək.

### Azərbaycan Dövlət Neft Fondunun 2007-ci il büdcəsinə xərclərin artırılması istiqamətində dəyişlik ediləcək

Azərbaycan Dövlət Neft Fondunun 2007-ci il büdcəsi dövlət büdcəsinin proqnozlarının düzəldilməsi çərçivəsində dəyişlikliklərə məruz qalacaq. Maliyyə Nazirliyindən bazar ertəsi verilən məlumata əsasən, Neft Fondunun xərclərini 50 mln. manatadək artırmaq planlaşdırılır. ARDNF-nin icraçı direktoru Şahmar Mövsümovun sözlərinə görə, fondun büdcəsində Bakı-Tbilisi-Qars marşrutu üzrə dəmir yolunun açılması layihəsi üzrə Gürcüstan hissəsinin maliyyələşdirilməsi ilə bağlı xərcləri də əlavə etmək planlaşdırılır. Dəmir yolunun Marabda-Axalkalaki hissəsinin yenidən qurulmasına və Axalkalakidən Türkiyə sərhədinə qədər dəmir yolunun tikintisinə 200 mln. dollar ayrılacaq.

Maliyyə Nazirliyindən qeyd olunduğu kimi, bu vəsaitlər bütövlükdə 2007-ci ili üçün nəzərdə tutulub, lakin qaçqın və məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılması üzrə xərclərin 150 mln.manatadək ixtisar olunması nəticəsində Fondun xərclərinin ümumi artımı 50 mln.manat səviyyəsində nəzərdə tutulub. Neft Fondunun 2007-ci il üçün təsdiq olunmuş büdcəsinə əsasən, onun gəlirləri 1 555,7 mln.manat, xərcləri isə 977,1 mln.manat səviyyəsində tutulub.

### Dövlət Sosial Müdafiə Fondu birinci rübün yekunlarını elan edib

Dövlət Sosial Müdafiə Fondu birinci rübün yekunlarını elan edib. Bu barədə Fondun məlumatın da bildirilib. Fondun gəlirləri 261,51 mln. manat təşkil edib, icbari sosial sığortadan əldə edilən gəlirlərin payna 133,8 mln. manat düşüb. 2006-cı ilin analoji dövründə bu göstərici 86,76 mln. manat təşkil edib. Büdcə təşkilatlarından – 52,66 mln. manat (28,86 mln. manat), qeyri-büdcə təşkilatlarından – 81,23 mln. manat (57,9 mln. mnat), dövlət büdcəsindən ayırmalar 89,14 mln. manat təşkil edib (35 mln. manat). Fondun birinci rüb ərzində xərcləri 229,56 mln. manat təşkil edib. 2006-cı ilin birinci rübündə bu göstərici 113,23 mln. manat təşkil edib. Əhaliyə ödənişlərə 222,26 mln. manat (107,26 mln. manat), əmək pensiyalarının təmin olunması xərclərinə 211,1 mln. manat (102,5

mln. manat), dövlət qulluqçularının təqaüdlərinə 6,59 mln. manat (2,88 mln. manat), digər xərclərə 7,3 mln. manat (5,98 mln manat), icbari sığorta xərclərinə 4,56 mln. manat (1,89 mln. manat) düşüb. 2006-cı ildən 2007-ci ilin əvvəlinə qədər qalıq 38,067 mln. manat təşkil edib.

# 2. Vergilər

### Birinci rübdə Azərbaycanın iri vergi ödəyicilərinin borcları 11,6 faiz azalıb

2007-ci il 1 aprel üçün Vergilər Nazirliyinin Xüsusi Vergi Rejimili Müəssisə və İri Vergi Ödəyicilərilə iş üzrə Departamentinin xətti üzrə vergi borclarının həcmi 11,6 faiz azalaraq 586,6 milyon manata çatıb. Bu barədə ilin birinci rübünə həsr olunan müşavirədə sözügedən departamentin rəis müavini Elçin İsayev məlumat verib. Halbuki ilin əvvəlində bu göstərici 663,8 milyon manat təşkil edirdi. Birinci rübdə «Azərenerji» və «Azəriqaz» ARDNŞ-dən aldığı yanacağa görə ödəmələri tam həyata keçirmədiyi üçün ARDNŞ proqnoz göstəriciləri 79 faiz yerinə yetirib. Yəni o büdcəyə gözlənilən 238,9 milyon manat əvəzinə 188,7 milyon manat vergi ödəyib.

ARDNŞ istisna olmaqla 9 iri vergi ödəyicisi dövlət büdcəsinə 52,3 milyon manat köçürüb, bununla da proqnoz 119 faiz icra olunub. Bunlardan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi vergi proqnozunu 22,3 faiz, Xəzər Gəmiçiliyi -16,1 faiz, «Azərkimya»-54 faiz, Bakı Metropoliteni – 8,7 faiz az yerinə yetirib. Digər dövlət təşkilatları isə vergi ödəmələrini tam icra edib. Belə ki, «Azərenerji» 149,8 faiz, Azərbaycan Dövlət Dəmir Yolu 109,3 faiz, «AzAL» 113,2 faiz, «Azəriqaz» 117,3 faiz, «Azərsu» 142,7 faiz ödəmələr həyata keçirib.

### Azərbaycanın iri vergi ödəyicilərində vergi qanunvericiliyinin pozulma halları azalıb

2007-ci il 1 aprel tarixində Vergilər Nazirliyinin xüsusi vergi rejimli müəssisə və iri vergi ödəyicilərlə iş üzrə Departamentində 692 müəssisə qeydə alınıb. Bu barədə 2007-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə sözügedən departamentin rəis müavini Elçin İsayev məlumat verib. Bunlardan 280 müəssisə dövlət mülkiyyəti sayılır. 84 müəssisə özəl, 278 müəssisə xarici, 47 müəssisə birgə müəssisə və 3 müəssisə beynəlxalq təşkilatların mülkiyyəti hesab olunur. Müvafiq müddət ərzində departamentdə qeydiyyatda olan ƏDV vergi ödəyicilərinin sayı 439-a çatıb. Hər il Nazirlər Kabinetinin müəyyənləşdirdiyi kriteriyalar əsasında iri vergi ödəyicilərinin siyahısı genişləndirilir. Bu kriteriyalara cavab verməyən müəssisələr yerli vergi orqanlarının nəzarətinə keçir, ancaq paralel olaraq iri vergi ödəyicilərinin sırası yenilərin hesabına genişlənir. Bu il departamentin qeydiyyatından 70 şirkət çıxarılıb, lakin eyni zamanda 35 müəssisə qeydiyyata alınıb (Bakı metropoliteninin 14-15 strukturu nəzərə alınmaqla). Ötən il ümumilikdə iri vergi ödəyicilərinin sayı 650-yə çatırdı. Neft müqavilələri çərçivəsində fəaliyyət göstərən şirkətlər müvafiq kriteriyalara cavab verməsələr belə avtomatik olaraq iri vergi ödəyicilərlə iş üzrə Departamentdə qeydiyyata alınırlar.

2007-ci ilin birinci rübündə 20 iri vergi ödəyicisində (14-dövlət, 5 özəl və biri xarici mülkiyyətə aiddir) vergi ödəmələri həyata keçirilib. Onların hər birində qanun pozuntuları aşkarlanıb, nəticədə dövlət büdcəsinə əlavə olaraq 1692,2 min manat köçürülüb. Maliyyə sanksiyalarının ümumi həcmi 618,2 min manat olub və hesablanmış vergilərə 65,5 min manatlıq faiz əlavə edilib. Yoxlamalar keçirildiyi müddətdə dövlət büdcəsinə əlavə olaraq 2375,9 min manat köçürülüb. Halbuki ötən ilki müvafiq göstərici 1433,6 min manat təşkil etmişdir.

### Vergi qanunvericiliyində maliyyə sanksiyalarının və administrativ cərimələrin miqdarı artıb

Azərbaycanın Vergilər Nazirliyi 2007-ci ilin birinci rübündə əhali ilə nəğd hesablaşmanın, valyuta əməliyyatlarının gerçəkləşdirilməsi, aksiz markaların və əmək müqavilələrinin tətbiqi və lisenziyalı fəaliyyət növləri ilə bağlı operativ nəzarət tədbirlərinin nəticələrini açıqlayıb. Verilən məlumatda bildirilir ki, 1353 obyektdə aparılan yoxlamalar zamanı 1326 obyektdə əhali ilə nəğd hesablaşma pozuntusu aşkar edilib. Tərtib edilən aktlara əsasən qaydaları pozanlara qarşı ümumi dəyəri 108 min manat olan maliyyə sanksiyası tətbiq olunub. Birinci rübdə administrativ cərimə və sanksiyalar hesabına dövlət büdcəsinə 376,6 min manat köçürülüb. Bu, ötən ilki göstəricidən 209,3 min manat artıqdır. Avtonəqliyyatda fərqləndirici nişanların tətbiqi qaydalarının pozulması üzrə 103

fakt qeydə alınıb. Nəticədə maliyyə sanksiyalarının ümumi həcmi 2,9 min manata çatıb. Ötən ilki qalıqlar da nəzərə alınsa, ümumilikdə dövlət büdcəsinə 5,4 min manat köçürülüb. 28 obyektdə 35040 markası olmayan və yaxud saxta markalı aksiz aşkarlanıb, 164 obyektdə isə 308 əmək müqaviləsi olmayıb. Bununla əlaqədər 550 obyektdə protokollar tərtib olunub və 3,9 min manatlıq administrativ sanksiyalar tətbiq edilib.

***Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat***

**Mart, 2007** (min AZN)
Naxçıvan MR ilə

| **Vergi və tədiyyələrin növləri** | **2007, mart** | | | |
|---|---|---|---|---|
| | **Proqnoz** | **Daxilolma** | **Faiz** | **Fərq** |
| Əlavə dəyər vergisi | 54 382,0 | 57 810,0 | 106,3 | 3 428,0 |
| Aksiz | 18 736,5 | 18 623,5 | 99,4 | -113,0 |
| Mənfəət vergisi | 68 205,5 | 65 222,9 | 95,6 | -2 982,6 |
| Mədən vergisi | 11 213,0 | 11 154,4 | 99,5 | -58,6 |
| Torpaq vergisi | 2 591,1 | 2 613,7 | 100,9 | 22,6 |
| Əmlak vergisi | 6 793,0 | 6 855,3 | 100,9 | 62,3 |
| Fiziki şəxslərin gəlir vergisi | 50 844,0 | 51 076,0 | 100,5 | 232,0 |
| Dövlət rüsumu | 4 436,5 | 4 107,6 | 92,6 | -328,9 |
| Yol vergisi | 1 554,2 | 2 820,7 | 181,5 | 1 266,5 |
| Sadələşdirilmiş vergi | 4 181,5 | 2 946,3 | 70,5 | -1 235,2 |
| Sair daxilolmalar | 27 121,4 | 3 040,6 | 11,2 | -24 080,8 |
| **C Ə M İ** | **250 058,7** | **226 271,0** | **90,5** | **-23 787,7** |

# 3. Büdcə xərcləmələri

**Nazir: Azərbaycan əhalisi üçün ünvanlı sosial yardım 1,5 dəfə artacaq**

Azərbaycan əhalisi üçün ünvanlı sosial yardım 67 manatadək artacaq. Bu barədə Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov bildirib. Ələkbərovun sözlərinə əsasən, ilkin olaraq bu rəqəm 44 manat 58 qəpik təşkil edib. Birinci rübdə Azərbaycanda ehtiyacı olan 56 min ailə bu cür yardım alıb. Nazirlər Kabinetinin qərarı ilə 1 iyul 2006-cı il tarixindən verilən ünvanlı dövlət sosial yardımının alınması üçün «ehtiyac kriteriyası» plankası 30 manat ölçüdə müəyyən olunub. Nazirliyin proqnozlarına görə, 2006-cı ildə ünvanlı sosial yardımı 50 min ailə (250 min nəfər) alıb. Ünvanlı sosial yardımın verilməsi üçün dövlət büdcəsindən 2006-cı il üçün 72 mln. manat ayrılıb. Lakin yardımın yarım ilə veriləcəyi ilə əlaqədar büdcə vəsaitlərinə qənaət olunacaq.

**Azərbaycanda ünvanlı dövlət sosial yardımının verilməsi üçün müvəkkil banklar seçilib**

Azərbaycan Beynəlxalq Bankı və Kapital Bank ünvanlı dövlət sosial yardımının verilməsi üçün hökumətin müvəkkil bankları seçilib. “Azərikard” prosessinq mərkəzindən verilən məlumata görə, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə texniki məsələlər həll olunur. Əhalinin aztəminatlı hissələrinin ünvanlı sosial yardım alacaqları kartların buraxılışı may ayında başlayacaq.

Hər bir rayon üçün orta hesabla 1,5-2 min kartın buraxılması planlaşdırılır. Ümumilikdə bu məqsədlə 80 min kart buraxılacaq və hər bir ailəyə bir kart veriləcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, birinci kvartalda 56 min ehtiyacı olan ailəyə ünvanlı sposial yardım verilib. 2006-cı ildə bu yardımı 50 min ailə (250 min nəfər) alıb. 2006-cı ilin 1 iyulundan verilən ünvanlı sosial yardım üçün “ehtiyac meyarı” Nazirlər Kabinetinin qərarı ilə 30 manat həcmində müəyyən olunub. Bu rəqəmin 67 manata qədər artırılması planlaşdırılır.

**İşsizlərin sosial müdafiəsi tədbirlərinin maliyyələşdirilməsi üçün Dövlət Proqramı təsdiqlənib**

Azərbaycanda ilk dəfə olaraq işsizlərin və iş axtaranların sosial müdafiəsi tədbirlərinin maliyyələşdirilməsi üzrə Dövlət Proqramı qəbul olunub. Bu barədə hökumətdən məlumat verilib. 2007-ci il üçün nəzərdə tutulmuş tədbirlərə 5 062,5 min manat ayrılması planlaşdırılır. Bu il respublikanın şəhər və rayonlarında əmək yarmarkalarının keçirilməsi, əmək birjaları, məsləhət otaqları, məşğulluq orqanları çərçivəsində tədris mərkəzlərinin yaradılması planlaşdırılıb. İşsizlərin sosial müdafiəsinin yaxşılaşdırılması, xüsusilə də onların zəruri informasiyalarla təmin olunması üçün vahid informasiya sistemi yaradılacaq. Bununla yanaşı, ölkədə işsizliyə görə verilən müavinətlər də minimum əmək haqqı ilə bir səviyyəyə çatdırılacaq.

Rusiyanın əmək bazarlarında çalışan Azərbaycan vətəndaşlarının problemlərindən sonra bu cür proqramın qəbul olunması zərurəti ortaya çıxıb. Nəzarət rejiminin gücləndirilməsi nəticəsində sənədlərini rəsmi qaydada qeydiyyatdan keçirməyən Azərbaycan vətəndaşları Rusiyanı tərk etmək məcburiyyətində qalıblar. Əhalinin Əmək və Sosial Müdafiəsi Nazirliyinin proqnozuna əsasən əmək bazarında iştirak edən 360 min nəfərdən təqribən 90 min nəfəri məşğulluq xidmətlərinə müraciət edəcək. Onlardan 30 min nəfərin işlə təmin olunması, 6,5 min nəfərin işsiz statusu və işsizliyə görə müavinət alması, 2,5 min nəfərin ixtisasartırma kurslarında iştirakı və yenidən hazırlanması, 2,5 min nəfərin pullu ictimai işlərə cəlb olunması və 48,5 min nəfərin iş axtaran insanlar kimi qeydiyyata götürülməsi gözlənilir.

**Azərbaycanın Maliyyə Nazirliyi avroistiqrazların emissiyası və yerləşdirilməsi üçün xarici menecer cəlb edir**

Azərbaycanın Maliyyə Nazirliyi xarici valyuta nominallı dövlət istiqrazlarının (avroistiqrazların) ilk emissiyası və onun beynəlxalq maliyyə bazarlarında yerləşdirilməsi üzrə aparıcı menecer cəlb edilməsi məqsədilə açıq tender elan edib. Nazirlikdən verilən məlumata əsasən, tender 4 iyun 2007-ci il tarixdə başlanacaq. Tenderdə iştirak etmək marağı aprelin 24-dək bildirilməlidir və tenderin əsas şərtlər toplusu isə aprelin 27-dək təqdim olunacaq. Tenderdə iştirak haqqı 1000 manat (1200 dollar) təşkil edir. İştirak haqqı Maliyyə Nazirliyinin aşağıdakı bank hesabına köçürülməlidir: COR 328518 AZN 3201-01, VOEN 1700341881, Beynəlxalq Bankın bank hesabı: kod 805722, müxbir hesabı: 0137010002944, VOEN 9900001881. SWIFT IBAZAZ2X.

Tender təklifləri vermək istəyən - valyuta nominallı dövlət istiqrazlarının emissyiası sahəsində aparıcı menecer xidmətlərinin göstərilməsində ən azı son üç il ərzində ixtisaslaşan, bu sahədə beynəlxalq təcrübəyə və nüfuza malik olan maliyyə qurumları ola bilər.

Prezidentin 2007-ci il üçün dövlət büdcəsinin yerinə yetirliməsinin təsdiqi barədə fərmanında 249 mln. manat məbləğində avrobond emissiylarının həyata keçirilməsi nəzərdə tutulub. İlkin şərtlərə əsasən, avroistiqrazlar beş il müddətinə və 5 faizədək faiz qoyuluş ilə buraxılacaq.

**Azərbaycan prezidenti Elmlər Akademiyası işçilərinin maaşlarında dəyişiklik edib**

Azərbaycan Prezidenti İlham Əliyev «Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında» 2002-ci il bir iyul tarixli sərəncamında dəyişiklik edilməsi barədə çərşənbə günü sərəncam verib. Yeni sərəncamla əvvəlki sərəncamın ikinci bəndinə dəyişiklik edilib. Bənd «Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərinin aylıq rütbə maaşları 1000 manat və müxbir üzvlərinin aylıq rütbə maaşları 700 manat məbləğində müəyyən edilsin» formasında dəyişdirilib. Sərəncam 2007-ci il bir may tarixindən qüvvəyə minir.

**Parlamentin komissiya sədri: «QHT-lərə dövlət tərəfindən maliyyə vəsaitinin ayrılması vacibdir»**

Qeyri-Hökumət Təşkilatlarına (QHT) dövlət tərəfindən maliyyə vəsaitinin ayrılması vacibdir. Bu barədə Milli Məclisin Sosial siyasət daimi komissiyasının sədri, millət vəkili Hadı Rəcəbli məlumat verib. Komissiya sədri qeyd edib ki, ölkədə həyata keçirilən abadlıq və quruculuq işləri ilə bağlı tender elan edilib, bu işi QHT-lərə tapşırmaq mümkündür: «Dövlətin buna maliyyə imkanları var.» Onun fikrincə, ictimai təşkilatların sosial problemlərin həllinə və cəmiyyətin idarə edilməsinə cəlb olunması müsbət nəticələr verə bilər: «Büdcədə bu işi həyata keçirməyə imkanlar var. Hesab edirəm ki, gələcəkdə dövlət QHT-ləri maliyyələşdirməlidir.» Rəcəbli bildirib ki, dövlətin QHT-ləri maliyyələşdirməsi onların xarici təşkilatlardan asılılığını azalda bilər. «Düzdür, xarici təşkilatların qrantlarından imtina etmək də olmaz, onlarla da əməkdaşlıq vacibdir. Biz açıq və demokratik cəmiyyət qururuqsa, QHT-lər də inkişaf etməlidir. Əgər dövlət onlara qrant vermirsə, QHT-lər neçə inkişaf edə bilər» - deyə komissiya sədri əlavə edib. Onun fikrincə, dövlətin QHT-lərə maliyyə yardımı ayırması xüsusi qaydalarla həyata keçirilməlidir.

**Azərbaycan Bakı-Tiflis-Qars layihəsi üzrə Gürcüstana vəsait ayırıb**

Bakı-Tiflis-Qars dəmiryol xəttinin tikintisi layihəsi çərçivəsində Azərbaycan artıq Gürcüstana 50 mln. dollar verib. Bu barədə Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov bildirib. Hazırda Türkiyənin Yuksel Domonik şirkəti yolun Gürcüstan hissəsinin texniki-iqtisadi əsaslandırması (TİƏ) üzərində işləri davam etdirir (bu şirkət artıq yolun Türkiyə hissəsinin TİƏ-sini hazırlayıb). Mayın ortalarında yolun Gürcüstan hissəsinin texniki-iqtisadi əsaslandılma işləri başa çatdrırılacaq.

Sonra tenderin elan ediləcəyi gözlənilir. Bu yolla bilavasitə tikinti işlərinin iyul ayında başlanacağı güman edilir.

Daha öncə Azərbaycan prezidenti "Yeni Bakı-Tiflis-Qars dəmir yolunun çəkilməsi layihəsi çərçivəsində tədbirlər barədə" Sərəncam imzalayıb. Bu sərəncama əsasən nəqliyyat naziri Ziya Məmmədovun rəhbərlik etdiyi Dövlət Komissiyası yaradılıb. Komissiyanın tərkibinə Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyinin nümayəndələri, Dövlət Neft Fondunun, Dəmir Yolu və Beynəlxalq Bankın rəhbərləri daxildir. Azərbaycan tərəfdən layihənin koordinatoru Nəqliyyat Nazirliyi təyin olunub. Nazirlik vasitəsilə Gürcüstana 200 mln. dollar kredit ayrılacaq. Bu vəsaitlər Azərbaycanın Dövlət Neft Fondundan sərf olunacaq.

**ADDY dəmiryol infrastrukturunun təkmilləşdirilməsinə ayıracağı vəsaitlərin ilkin həcmini müəyyən edib**

2007-10-cu illərdə Azərbaycan Dövlət Dəmir Yolu (ADDY) ölkənin dəmir yolu infrastrukturunun müasirləşdirilməsi üçün öz vəsaitləri hesabına 30 mln. dollar ayırmağı planlaşdırır. Bu barədə Nəqliyyat Nazirliyindən məlumat verilib. ADDY-nin imkanları hazırkı dəmir yolu tariflərinə görə məhduddur. Buna görə də daha böyük yatırımlara ümid olmaq olmaz.

"TRACECA nəqliyyat dəhlizi istiqamətində tariflər təqribən iki dəfə dəyişdirilərsə, ADDY-nin imkanları daha da genişlənə bilər. Lakin nəqliyyat dəhlizinin iştirakçısı olan dövlətlərlə olan razılaşmaya əsasən, bunu etmək mümkün deyil. Əks halda bu, yük axını həcmində özünü göstərəcək", - deyə Nazirlikdə hesab edirlər. Nəqliyyat Nazirliyi nümayəndələrinin fikrincə, bu günkü əsas tapşırıq dəhlizin cəlbediciliyinin artırılmasıdır, buna görə də hər hansı bir ehtiyatsız hərəkət təhlükəli ola bilər.

**Gəncə küçələrinin işıqlandırma sisteminin quraşdırılması üçün Dövlət Neft Fondundan 1 milyon manat vəsait ayrılıb**

Gəncə küçələrinin işıqlandırma sisteminin quraşdırılması üçün Dövlət Neft Fondundan 1 milyon manat vəsait ayrılıb. Bu barədə məlumatı Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov verib. Onun sözlərinə görə, işıqlandırıcı dirəklərin hazırlanması üçün o, Rusiyanın Sankt-Peterburq şəhərində olub və oradakı müəssisələrin biri ilə bu sahədə müqavilə bağlayıb. «Biz artıq sifarişimizi vermişik. İstehsal olunan küçə işıqları Gəncənin milli üslubunda olacaq. Təxminən 3 aya işıqlar gətirilib yerinə quraşdırılacaq» - deyə o bildirib. Gəncə şəhər Mənzil Komunal Təsərrüfat İstehsalat Birliyinin sədri Abit Əliyev «Trend»ə bildirib ki, ilk mərhələdə şəhərə 50 belə işıqlandırıcı dirək gətiriləcək. Dirəklər ilk növbədə şəhərin mərkəzi hissəsində Nizami, Atatürk, Cavad Xan küçələrində quraşdırılacaq. «Bir dirəyin qiyməti təxminən 10 000 ABŞ dolları dəyərindədir. Belə dirəkləri respublikamızda və Qafqazda hazırlayan müəssisə yoxdur, yalnız Almaniyada və Rusiyanın Sankt-Peterburq şəhərində hazırlanır. Dirəklər yığma üsulu ilə deyil, tökmə üsulu ilə hazırlanır» - deyə Əliyev bildirib.

## 4. Büdcəyə nəzarət və şəffaflıq

**Sədr müavini: Dövlət müəssisələri Hesablama Palatasına münasibətlərini dəyişiblər**

"Ölkənin son 3 ildə yüksək iqtisadi inkişafını nəzərə alsaq, Azərbaycan Hesablama Palatasının rolu daha da əhəmiyyətlidir". Bu barədə Palatanın sədr müavini Abbas Allahverdiyev bildirib. Onun sözlərinə görə, ötən il dövlət qurumu 18 audit yoxlaması aparıb. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Aztelekom İB-də, Keşlə Yükdaşıma Stansiyasında, notariat kontorlarında, Xarici Dillər Universitetində, Təhsil Nazirliyində, Xətai Bələdiyyəsində vergi gəlirləri üzrə, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində audit vasitələri üzrə, ARDNF-də ayırmalar üzrə, İctimai Teleradiyoyayımı Şirkətində (ITV) yoxlamalar aparılıb. Allahverdiyevin sözlərinə görə, əvvəlki illərlə müqayisədə dövlət müəssisələrinin Hesablama Palatasına olan münasibətində dəyişiklik müşahidə olunur. Hesablama Palatasının rəylərindəki sistem xarakterli çatışmazlıqlar mərhələ-mərhələ aradan qaldırılır. Amma çatışmazlıqlar da var ki, onları aradan qaldırmaq lazımdır. Məsələn, bura bələdiyyələrin büdcə vəsaitləri üzərində nəzarətini aid etmək olar. "Əvvəlki kimi, bəzi dövlət müəssisələrində auditin keçirilməsinə şəraitin yaradılması məsələsi həll edilməmiş qalmaqdadır. Verilmiş sorğulara zamanında mahiyyəti üzrə cavab almaqda çətinliklər mövcuddur",-deyə Abbas Allahverdiyev bildirib.

**Parlament Azərbaycanın Hesablama Palatasının yeni rəhbərinin təyinatını təsdiqlədi**

Azərbaycan parlamenti 17 aprel 2007-ci il tarixində Heydər Əsədovun Hesablama Palatasının sədri vəzifəsinə təyin edilməsi ilə bağlı qərar qəbul edib. Əsədov bu postda Namiq Nəsrullayevi əvəzləyib. Əvvəllər Heydər Əsədov maliyyə nazirinin müavini və dövlət xəzinadarlığının rəhbəri olub. Namiq Nəsrullayev səhhətindəki durumla əlaqədər istefa ərizəsini yazıb. Heydər Əsədov 1959-cü ildə anadan olub. 1995-ci ildə Azərbaycanın maliyyə nazirinin müavini vəzifəsinə təyin edilib. 1996-cı ildə isə dövlət xəzinadarlığının rəhbəri olub. Heydər Əsədov evlidir, 3 övladı var.

**Azərbaycanın Hesablama Palatası «Azəristiliktəchizat»da çatışmazlıqlar aşkar edib**

Azərbaycanın Hesablama Palatası «Azəristiliktəchizat» Səhmdar Cəmiyyətində aparılan auditi müzakirə edib. Yoxlamaların məqsədi 2005-2006-cı illərdə «Sənaye və tikinti xərclər» bölməsi üzrə dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinin müəyyən edilməsi olub. Bu barədə Hesablama Palatasından bildiriblər. Audit zamanı aşkar olunub ki, 2005-2006-ci illərdə «Azəristiliktəchizat»da büdcə proqnozları tərtib edilməyib, tenderlərin keçirilməsi zamanı «Dövlət satınalmaları haqqında» qanuna riayət olunmayıb, tikinti-təmir işləri üçün ayrılan vəsaitin müəyyən hissəsi avtomobillər və avadanlıqların alınmasına yönəlib. Auditin nəticələri «Azəristiliktəchizat» nümayndələrinin iştirakı ilə müzakirə olunub və kollegiya iclasının qərarı Maliyyə Nazirliyinə, habelə «Azəristiliktəchizat»ın özünə göndərilib.

**Azərbaycanın Hesablama Palatası Naxçıvanın Elmi Araşdırma Veterinar Stansiyasının auditini müzakirə edib**

Azərbaycanın Hesablama Palatası Naxçıvan Muxtar Respublikasının büdcəsindən 2005-ci ildə Elmi Araşdırma Veterinar Stansiyası üçün ayrılan vəsaitlərin auditinin nəticələrini müzakirə edib. Hesablama Palatasından verilən xəbərə görə, araşdırmalar zamanı məlum olub ki, stansiya Ədliyyə Nazirliyində qeydiyyatdan keçməyib, bu müddətdə elmi nailiyyətlərin tətbiqi üçün hər hansı müqavilələr bağlanmayıb, maaşlar ödənilməyib. Habelə «Mühasibat uçotu haqqında» qanuna riayət olunmayıb, vaxtı-vaxtında əsas vəsaitlərin və əmlakın qiymətləndirlməsi aparılmayıb.

# 5. Büdcə qanunvericiliyi

**Ekspert: «Azərbaycanda «Dövlət maliyyə nəzarəti haqqında» qanuna ehtiyac artır»**

Azərbaycanın Hesablama Palatasının altı illik təcrübəsi göstərir ki, onun fəaliyyətini, habelə digər maliyyə nəzarəti orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsinə ehtiyac var. Bu fikri «TrendCapital» analitik mərkəzinin eksperti Ellada Xankişiyeva ifadə edib. Onun sözlərinə görə, bu, «Dövlət maliyyə nəzarəti haqqında» qanunun qəbulunun sürətləndirilməsi zərurətini daha da artırır. Həmin qanun maliyyə nəzarətinin tətbiqinin vahid hüquqi və metodoloji əsaslarını, habelə dövlət maliyyə nəzarəti orqanlarının vahid sistemini və onların qarşılıqlı əlaqələrini təmin edəcək.

Hazırda «Dövlət maliyyə nəzarəti haqqında» qanun layihəsinin yekun variantı beynəlxalq maliyyə institutlarında ekspertizadadır. «Büdcə sferasının heç bir sahəsi nəzarətdən kənar qala bilməz. İş onda deyil ki, yoxlamaları kim keçirəcək və maliyyə nəzarətində kim üstündür: Hesablama Palatası, yaxud Maliyyə Nazirliyi. Qanunun gücünə əsaslanan effektiv nəzarətə ehtiyac var. «Dövlət maliyyə nəzarəti haqqında» qanun olmalıdır» - deyə Xankişiyeva bildirib.

**Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsini nəzərdə tutan qanun layihəsi qəbul olnub**

Milli Məclisin cümə günü keçirilən iclasında "Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub. Qanun layihəsini parlamentin Regional məsələlər daimi komissiyası hazırlayıb. Komissiyanın sədri Arif Rəhimzadə bildirib ki, qanun müvafiq icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə yerli əhəmiyyətli məsələlərin həlli üçün əlavə səlahiyyətlərin verilməsini və bunun həyata keçirilməsini müəyyən edəcək. Müvafiq icra strukturları bələdiyyə orqanlarına dövlət mülkiyyətində olan obyektlərin idarə olunması, yaşayış fondu, qeyri-yaşayış binaları, infrastruktur obyektlərinin istismarı, ictimai nəqliyyatın, təsərrüfat yollarının, təhsil, mədəniyyət, səhiyyə, idman və bədən tərbiyəsi ilə bağlı sahələrin idarə olunması və inkişafı, bələdiyyə ərazisində yerləşən tarixi abidələrin, park və qəbiristanlıqların abadlaşdırılması, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı ilə bağlı müəyyən səlahiyyətlər verə bilər. «Bələdiyyələrə verilən səlahiyyətlər onlara geniş miqyasda fəaliyyət göstərməyə, yerli məsələlərin həllində aparıcı qüvvə kimi çıxış etməyə imkan yaradacaq», -deyə komissiya sədri vurğulayıb. A.Rəhimzadə qeyd edib ki, bələdiyyələrin normal fəaliyyət göstərmələri üçün xeyli səlahiyyətləri var: «Buna baxmayaraq, cəmiyyətdə bələdiyyələrin fəaliyyətinin genişlənməsi məsələsi müzakirə predmeti olaraq qalır. Qanunvericilikdə bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi, onların geri alınması və səlahiyyətlərdən imtina qaydaları əks etdirilməyib. «Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında" qanun layihəsi qanunvericilikdə olan bu boşluqların aradan qaldırılmasını nəzərdə tutur.»

Bələdiyyələ hansı səlahiyyətlərin verilməsini araşdırmaq üçün yerli icra hakimiyyəti və bələdiyyələrin nümayəndələrindən ibarət komissiya yaradılacaq. Komissiya hər iki tərəfdən beş nəfər olmaqla paritet əsaslarla formalaşdırılacaq.

Millət vəkili Əli Məsimli qeyd edib ki, «Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında" qanun layihəsi bu sahədə islahatların aparılması və bələdiyyələrin cəmiyyətdə oynadıqları rolun artması baxımında böyük əhəmiyyət kəsb edir: «Lakin qanunda yazılır ki, bələdiyyələrə belə bir səlahiyyətlər verilə bilər. Bu isə o deməkdir ki, bələdiyyələrə bu səlahiyyətlər verilməyə də bilər. Qanunda belə bir boşluğun olması gələcəkdə problemlər yaradacaq. Ona görə də qanunda konkret yazılmalıdır ki, bələdiyyələrə belə bir səlahiyyətlər verilməlidir.» Deputat Vahid Əhmədov, Nizami Xuduyev və başqaları Ə.Məsimlinin bu fikirlərini dəstəkləyiblər. Onlar qeyd ediblər ki, qanun konkret yazılmalıdır. Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov isə deyib ki, birdən-birə bələdiyyələrə böyük səlahiyyətlərin verilməsi əlavə problemlərin yaranmasına səbəb ola bilər: «Qanun ona görə belə yazılıb ki, bələdiyyələrə səlahiyyətlər veriləndən sonra hansısa problem

yarananda onu geri almaq mümkün olsun.». Spiker Oqtay Əsədov qeyd edib ki, qanun layihəsi birinci oxunuşda müzakirə olunur. Verilən təkliflər əsasında qanun təkmilləşdiriləcək. Müzakirələrdən sonra «Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul olunub.

**Azərbaycan hökumətinə ünvanlı sosial yardımın verilmə mexanizminin sadələşdirilməsi təklifləri təqdim olunub**

Azərbaycanda əhaliyə sosial yardım verilməsi qaydalarında dəyişiklik ediləcək. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ünvanlı sosial yardım şöbəsinin müdiri Natiq Qasımov məlumat verib. Onun sözlərinə görə, bu dəyişikliklər ünvanlı sosial yardımın verilmə mexanizminin sadələşdirilməsinə yönəldilib. "Artıq qaydalarda edilməsi planlaşdırılan dəyişikliklər barədə Nazirlər Kabinetinə təkliflər təqdim olunub. Hazırda müvafiq nazirlikdə bu məsələ ilə bağlı rəylər toplanılır. Güman edilir ki, növbəti həftənin sonunda məsələ həll olunacaq",-deyə Qasımov bildirib.

Kredit götürən şəxslərə də ünvanlı sosial yardımın verilməsi təklif ounub. Ancaq bunun üçün kreditlər müəyyən həddə məhdudlaşdırılmalıdır. Bu o məqsədlə edilir ki, kənd təsərrüfatı ilə məşğul olan ailələr kredit ala bilsinlər. Əvvəllər 1 inək, 5 qoyunu olan ailələrə yardım edilmirdi. İndi bu bəndin götürülməsi təklif olunur. Əvəzində təsərrüfatı olanların gəlirləri hesablanacaq. Son 6 ayda alqı-satqı ilə məşğul olan ailələrin gəlirlərinə qoyulmuş məhdudiyyətlər yaşayış minimumu ilə əvəzlənəcək. Yardım ayrılan 6 ay müddətində ailənin gəlirində dəyişiklik olurdusa, yardım dayandırılırdı. Bundan sonra isə gəlirlər deyil, yaşayış minimumu nəzərə alınacaq. Hazırda ölkə üzrə 55 min ailə ünvanlı sosial yardım alır. Onlardan 46 mini yeni yardım alanlardı.Orta hesabla ailəyə düşən məbləğ 66,08 manat, adam başına isə 14 manat 48 qəpik təşkil edir.

# 6. Vətəndaş cəmiyyəti

**Milli Büdcə Qrupunun (MBQ) 2007-ci il aprel ayı üçün fəaliyyəti**

2007-ci il üçün Milli Büdcə Qrupunun fəaliyyəti Strategiyaya müvafiq olaraq, Proqram layihəsi, İnstitusional layihə və Şəbəkə layihələrini əhatə edir. Mart ayından başlayan fəaliyyət nəticəsində:

- *Şəbəkə layihələri* fəaliyyətə başlamışdır. Bu çərçivədə büdcə xərclərinin sosial, təhsil, səhiyyə, regional və investisiya istiqamətləri üzrə monitorinq modulları hazırlanır. Regional Şəbəkə istiqamətində Gəncədən olan 3 tərəfdaş təşkilat müəyyən edilmişdir. Səhiyyə istiqaməti üzrə Səhiyyə Nazirliyi və Diabet Liqası, o cümlədən jurnalistlərin də daxil olduğu tərəfdaş Qrup müəyyən edilib. Sosial istiqamət üzrə artıq monitorinq işləri başlayıb və bir neçə evlərdə qaçqınlara pulsuz elektrik enerjisindən istifadəyə görə büdcədən ayrılan vəsaitlərin səmərəlilik dərəcəsinin ölçülməsi aparılır. Təhsil istiqaməti üzrə ilkin olaraq, şagirdlərə pulsuz dərslik paylanması proqramı üzrə tədqiqat aparmağı və tövsiyələrin də daxil olacağı hesabatın hazırlanması nəzərdə tutulur.
- *Proqram layihəsi* üzrə MBQ artıq mart ayı üçün Aylıq İnformasiya Bülleteni (elektron versiya) hazırlayıb. Aylıq İnformasiya Bülletenınə ölkədə ay ərzində büdcə, vergi və makroiqtisadi sahələrdə baş verən dəyişikliklər və yeniliklər daxildir. Aylıq İnformasiya Bülleteni MBQ-nin istər tərfədaş təşkilatları, istər jurnalistlər və digər maraqlı tərəflərə göndərilir. Azərbaycan Respublkası dövlət büdcə sisteminin ümumi təsvirinin yaradılması və mövcud çatışmazlıqların aşkarlanması, o cümlədən büdcə prosesinin müxtəlif mərhələlərində MBQ-nin iştirak imkanlarının müəyyənləşdirilməsi istiqamətində tədqiqat işi davam edir. 2007-ci ilin “Vətəndaşın Büdcə Bələdçisi” adlı sadədilli nəşr artıq oxucuların ixtiyarına verilib.
- Aprel ayından başlayaraq, MBQ və Azadlıq radiosunun birgə verilişi hər həftənin 2-ci günləri saat 20:30-da efirə gedir. Aprel ayında bir neçə veriliş hazırlanmış, büdcə şəffaflığı, sahibkarlığın inkişakı ilə bağlı Prezident Fərmanı, neft amilinin büdcədəki rolu, enerjidaşıyıcılarının son qiymət artımının dövlət büdcəsinə təsiri kimi məsələlər müzakirə edilmişdir.
- Mart-Aprel aylarında MBQ-nin xarici əməkdaşlarla və beynəlxalq təşkilatların yerli nümayəndəlikləri ilə bir sıra görüşləri keçirilmiş, və yeni əməkdaşlıq əlaqələri qurulmuşdur.

# 7. Beynəlxalq təcrübə

**Gürcüstan ilk dəfə olaraq dövlət büdcəsinin üzünmüddətli proqnozlaşdırılmasına keçir**

Gürcüstan ilk dəfə olaraq dövlət büdcəsinin üzünmüddətli proqnozlaşdırılmasına keçir. Bu barədə Gürcüstanın baş naziri Zurab Noqaideli hökumətin iclasında bildirib. «Biz artıq büdcədə daimi gəlirləri təmin edə bildik və vergi rüsumlarını da təmin edə bilərik. Bu da hökumətə üzünmüddətli proqnozlar etməyə imkan verəcək. Bu, bizim hökumətimizin sabit, davamlı, möhkəm işinin daha bir göstəricisidir» – Noqaideli qeyd edib.

Gürcüstan hökuməti ölkənin dövlət büdcəsinin parametrlərini artırmaq niyyətindədir. Dövlət büdcəsinin gəlirləri bu il 500 milyon lari, xərcləri isə 281 milyon lariyədək artacaq. 2007-ci ildə dövlət büdcəsinin yeni parametrlərinin hissələri bu gün hökumətin xüsusi iclasında müzakirə ediləcək. Baş nazir Naqaideli hələlik əlavə vasitələrin yönələcəyi prioritetləri qeyd etməyib. Maliyyə naziri isə deyib ki, büdcənin 200 milyon lari artırılması qıtlığın azalmasına gətirib çıxaracaq.

**DB missiyası Azərbaycanın Milli Bankında büdcə formalaşdırılmasında Çili təcrübəsinin təqdimatını keçirib**

Azərbaycanın Milli Bankında (AMB) bank rəhbəri Elman Rüstəmovun Dünya Bankının (DB) aparıcı iqtisadçısı Kristian Kostopolusun rəhbərlik etdiyi missiya ilə görüşü keçirilib. Bu barədə çərşənbə axşamı AMB-nin mətbuat xidmətindən məlumat verilib. E.Rüstəmov Azərbaycanda cari makroiqtisadi proseslər, inflasiya və büdcə prosesləri, manatın kursunun dəyişilməsi barədə məlumatlandırıb. Bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olunub. DB missiyasının rəhbəri müzakirələrin aparıldığı büdcə formalaşdırılmasında və prioritetlərin müəyyənləşdirilməsində Çili təcrübəsinin təqdimatını keçirib.

*Qeyd: İnformasiyaların mənbəyi "Trend" İnformasiya Agentliyi və Vergilər Nazirliyidir.*

Məsul redaktor: Kənan Aslanlı (İctimai Vəsaitin Monitorinqi Mərkəzi)
kenan@pfmc.az

İctimai Vəsaitin Monitorinqi Mərkəzi (İVMM)
Ünvan: 39, Füzuli küç., 28, 2ci mərtəbə, Bakı AZ1014, Azərbaycan
Telefon/Fax: (+994 12) 497 8967, 596 3774
office@pfmc.az; http://www.pfmc.az

Milli Büdcə Qrupu (MBQ)
Azərbaycan, Bakı, AZ1110, Ak. Həsən Əliyev küç. 117A
Tel: (+994 12) 564 34 65 (69); Fax: (+994 12) 564 34 66
fnajafova@osi-az.org; http://www.nbg.az